**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 13**

**Bakı şəhəri** **21 oktyabr 2024-cü il**

**"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar bəzi hüquqi aktlarda dəyişiklik edilməsi haqqında**

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 2423 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2023-cü il tarixli 1065s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının "Fiziki şəxslərin uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 19 may tarixli 1517050000003100 nömrəli, "Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli qərarlarında, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının "Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə verilməli məlumatın forması"nın, "Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi müddəti, forması və qaydası"nın, "Üzləşmə aktının forması"nın və "Bank əməliyyatları aparan şəxslər tərəfindən vergi ödəyicilərinin hesabları üzrə aparılmış əməliyyatlar barədə elektron qaydada təqdim olunan məlumat forması"nın təsdiq edilməsi haqqında" 2020-ci il 28 aprel tarixli 1 nömrəli, "Nəzarət olunan xarici müəssisənin mənfəətinin Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəlirlərinə daxil edilməsi qaydası, habelə nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası"nın təsdiq edilməsi haqqında"

2022-ci il 19 aprel tarixli 8 nömrəli və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat forması"nın, "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat forması"nın və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat forması"nın təsdiq edilməsi haqqında" 2023-cü il 15 mart tarixli 1 nömrəli qərarlarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.

**3.** İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Zamanovaya tapşırılsın ki, bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən (Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 5.5-ci bəndi nəzərə alınmaqla) sonra 72 saat müddətində rəsmi dövri mətbu nəşrdə dərc edilməsi və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında, eləcə də qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin internet informasiya ehtiyatında yerləşdirilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

**4.** Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin müdir müavini Elnur Əliyevə tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**5.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya iclasının protokolu.

**Sədr,**
**İqtisadiyyat naziri** **Mikayıl Cabbarov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
Kollegiyasının 2024-cü il 21 oktyabr tarixli 13 nömrəli
Qərarı ilə təsdiq edilmişdir

**“Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar bəzi hüquqi aktlarda edilmiş dəyişikliklər:**

**1.** Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2015-ci il 19 may tarixli 1517050000003100 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslərin uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydaları”nın 4.6.5-ci və 4.7.5-ci yarımbəndlərinə “bank” sözündən sonra “və digər ödəniş” sözləri əlavə edilsin.

**2.** “Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** həmin Qərarla təsdiq edilmiş “Kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar” üzrə:

**2.1.1.** 8.1.6.23-cü, 8.2.7.26-cı, 8.3.12.20-ci, 8.10.3.18-ci, 8.17.3.2-ci, 8.17.3.3-cü, 8.21.6.7-ci və 9.1.7-ci (hər iki halda) yarımbəndlərə “bank” sözündən sonra “və digər ödəniş” sözləri əlavə edilsin;

**2.1.2.** 8.1.6.34-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.1.6.34. Kredit və ya elektron pul təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə həmin kredit və ya elektron pul təşkilatının xidmət etdiyi vergi ödəyicisinə (şəxsə) dair əldə edilmiş eyniləşdirmə məlumatı, onun hesabları və hesab əməliyyatları barədə məlumatlarla bəyannamə göstəricilərinin müqayisə edilməsi.”;

**2.1.3.** 8.1.6.38.3-cü, 8.2.7.47.3-cü, 8.3.12.24.3-cü, 8.4.4.8.2-ci, 8.8.4.4.1-ci, 8.9.8.15.3-cü, 8.10.3.19.1-ci, 8.12.4.3.2-cü və 8.20.6.5.1-ci yarımbəndlərdə “Bank əməliyyatları barədə” sözləri “Kredit və ya elektron pul təşkilatlarından və ya bank əməliyyatları aparan şəxslərdən” sözləri ilə əvəz edilsin;

**2.1.4.** 8.2.7.41-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.2.7.41. Fəaliyyətini dayandırmış vergi ödəyiciləri barədə kredit və ya elektron pul təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə, həmin kredit və ya elektron pul təşkilatının xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) eyniləşdirmə məlumatı, onun hesabları və hesab əməliyyatları barədə məlumatın, həmçinin bu məlumatı təsdiq edən sənədlərin, uçot-baza məlumatları əsasında təqdim edilmiş elektron qaimə-fakturalar barədə məlumatın alınması;”;

**2.1.5.** 8.11.1.9-ci yarımbənddə “bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru” sözləri “ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı” sözləri ilə əvəz edilsin;

**2.1.6.** 8.11.3.9.2-ci yarımbənddə “Bank əməliyyatları barədə” sözləri “Kredit və ya elektron pul təşkilatlarından və ya bank əməliyyatları aparan şəxslərdən” sözləri ilə əvəz edilsin və həmin yarımbənddə “bank” sözündən sonra “və digər ödəniş” sözləri əlavə edilsin;

**2.1.7.** 8.16.1-ci yarımbəndə birinci halda “bank” sözündən sonra “və digər ödəniş” sözləri əlavə edilsin və həmin yarımbənddə “bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru” sözləri “ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı” sözləri ilə əvəz edilsin;

**2.1.8.** 8.17.1-ci və 8.17.2-ci yarımbəndlərə “bank” sözündən sonra “və digər ödəniş” sözləri əlavə edilsin və həmin yarımbəndlərdə “banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı

və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı" sözləri əvəz edilsin.

**2.2.** həmin Qərarla təsdiq edilmiş "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları" üzrə:

**2.2.1.** 14.6-cı bəndin ikinci cümləsində birinci halda "bank" sözü "hesab" sözü ilə, "bank əməliyyatları aparan şəxslər" sözləri "kredit və ya elektron pul təşkilatları" sözləri ilə əvəz edilsin;

**2.2.2.** 14.16-cı bəndə birinci halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və "bankın xidmət etdiyi vergi ödəyicisinin və ya sığortaedənin, yaxud sığortalının bank hesabı və əməliyyatları barədə məlumat" sözləri "kredit və ya elektron pul təşkilatının xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) eyniləşdirmə məlumatını, onun hesabları və hesab əməliyyatları barədə məlumat, həmçinin bu məlumatı təsdiq edən sənədləri" sözləri ilə əvəz edilsin;

**2.2.3.** 16.4.15-ci, 26.1.19.3-cü, 27.1.55-ci, 36.1.20-ci, və 49.3.6-cı yarımbəndlərə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.4.** 27.1.7-2-ci yarımbənddə "bank əməliyyatlarını həyata keçirən şəxslərdən" sözləri "ödəniş xidməti təchizatçılarından" sözləri ilə əvəz edilsin;

**2.2.5.** 27.1.19-cu yarımbəndə "bank" sözündən sonra "və ya digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.6.** 27.1.21-ci yarımbəndə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin yarımbənddə "banklardan" sözü "ödəniş xidməti təchizatçılarından" sözləri ilə əvəz edilsin;

**2.2.7.** 29.1.14-1-ci yarımbəndə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin yarımbənddə "13.2.16.14-1-ci" sözləri "13.2.16.14-2-ci" sözləri ilə əvəz edilsin;

**2.2.8.** 36.1.15-3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin;

"36.1.15-3. Yerli ödəniş xidməti təchizatçısı və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı tərəfindən hüquqi şəxslərə və fərdi sahibkarlara bank və digər ödəniş hesablarındakı pul vəsaitləri nağd qaydada verilərkən ödəmə mənbəyində verginin tutulması;";

**2.2.9.** 46-1.5-ci yarımbəndə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin yarımbənddə "banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı" sözləri ilə əvəz edilsin;

**2.2.10.** 48.6-cı bənddə "bank" sözü "ödəniş xidməti təchizatçılarının" sözləri ilə əvəz edilsin;

**2.2.11.** həmin Qaydalara 1 nömrəli əlavəyə "Bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.12.** həmin Qaydalara 10 nömrəli əlavə üzrə:

**2.2.12.1.** adına "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.12.2.** mətnində hər üç halda "Bankın (kredit təşkilatının)" sözləri "Kredit və ya elektron pul təşkilatının və ya bank əməliyyatları aparan şəxsin" sözləri ilə əvəz edilsin;

**2.2.12.3.** 3-cü hissəyə "Bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.13.** həmin Qaydalara 24 nömrəli əlavə üzrə:

**2.2.13.1.** 1.5-ci bəndə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin bəndə aid cədvəldə "Bankın" sözü "Kredit və ya elektron pul təşkilatının və ya bank əməliyyatları aparan şəxsin" sözləri ilə əvəz edilsin;

**2.2.13.2.** 2.16.1-ci yarımbəndə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

**2.2.13.** həmin Qaydalara 30 nömrəli əlavədə "Bankın" sözü "Ödəniş xidməti təchizatçısının" sözləri ilə əvəz edilsin;

**2.3.** həmin Qərarla təsdiq edilmiş "Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları"na 4, 5 və 6 nömrəli əlavələrdə "banklara və ya digər kredit təşkilatlarına" sözləri "kredit və ya elektron pul təşkilatına və ya bank əməliyyatları aparan şəxsə" sözləri ilə əvəz edilsin.

**3.** “Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə verilməli məlumatın forması”nın, “Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi müddəti, forması və qaydası”nın, “Üzləşmə aktının forması”nın və “Bank əməliyyatları aparan şəxslər tərəfindən vergi ödəyicilərinin hesabları üzrə aparılmış əməliyyatlar barədə elektron qaydada təqdim olunan məlumat forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2020-ci il 28 aprel tarixli 1 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** adında və 4-cü hissədə “Bank əməliyyatları aparan şəxslər” sözləri “Kredit və ya elektron pul təşkilatları” sözləri ilə əvəz edilsin;

**3.2.** həmin Qərarla təsdiq edilmiş “Bank əməliyyatları aparan şəxslər tərəfindən vergi ödəyicilərinin hesabları üzrə aparılmış əməliyyatlar barədə elektron qaydada təqdim olunan məlumat forması” üzrə:

**3.2.1.** məlumat formasında və həmin məlumat formasına Əlavədə “Bank əməliyyatları aparan şəxslər” sözləri “Kredit və ya elektron pul təşkilatları” sözləri ilə əvəz edilsin;

**3.2.2.** məlumat formasında “Bank ödənişi” sözləri “hesab əməliyyatları” sözləri ilə əvəz edilsin;

**3.2.3.** məlumat formasının və həmin məlumat formasına Əlavənin mətnində “Bankın” sözü “Kredit və ya elektron pul təşkilatlarının” sözləri ilə, “Bank hesabının” sözləri “Bank və digər ödəniş hesabının” sözləri ilə əvəz edilsin.

**3.2.4.** məlumat formasının və həmin məlumat formasına Əlavənin mətnində “bankın” sözü “kredit və ya elektron pul təşkilatlarının” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 19 aprel tarixli 8 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nəzarət olunan xarici müəssisənin mənfəətinin Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəlirlərinə daxil edilməsi qaydası, habelə nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası”nın 3.2.5-ci yarımbəndində “bank” sözü “ödəniş xidməti təchizatçılarının” sözləri ilə əvəz edilsin;

**5.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat forması”nın, “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat forması”nın və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 15 mart tarixli 1 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** adında “kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə” sözləri “ödəniş xidməti təchizatçılarında” sözləri ilə əvəz edilsin, adından hər iki halda “banklar,” sözü çıxarılsın və adına hər iki halda “kredit” sözündən sonra “və elektron pul” sözləri əlavə edilsin;

**5.2.** 1-ci hissədə “kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə” sözləri “ödəniş xidməti təchizatçılarında” sözləri ilə əvəz edilsin;

**5.3.** 2-ci və 3-cü hissələrdən “banklar,” sözü çıxarılsın və həmin hissələrə “kredit” sözündən sonra “və elektron pul” sözləri əlavə edilsin;

**5.4.** həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə açılmış hesablar barədə məlumat forması”nda aşağıdakı dəyişikliklər edilsin:

**5.4.1.** adında "kredit təşkilatlarında və ya bank əməliyyatı aparan şəxslərdə" sözləri "ödəniş xidməti təchizatçılarında" sözləri ilə əvəz edilsin;

**5.4.2.** 3.1-ci və 3.2-ci bəndlərində "kredit təşkilatının və ya bank əməliyyatı aparan şəxsin" sözləri "ödəniş xidməti təchizatçısının" sözləri ilə əvəz edilsin

**5.5.** həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.1-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən vergi ödəyicilərinə açılmış hesablar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) barədə məlumat forması"nda aşağıdakı dəyişikliklər edilsin:

**5.5.1.** adından və "Qeyd" hissəsindən "banklar," sözü çıxarılsın, adına və "Qeyd" hissəsinə "kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;

**5.5.2.** 1.4-cü bənddən ikinci halda "bank" sözü çıxarılsın;

**5.6.** həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.5-ci maddəsinə uyğun olaraq, banklar, kredit təşkilatları və poçt rabitəsinin milli operatoru tərəfindən köçürülən vergi ödəyicilərinə məxsus hesablar barədə məlumat forması"nda aşağıdakı dəyişiklilər edilsin:

**5.6.1.** adından "banklar," sözü çıxarılsın və "kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;

**5.6.2.** "Bank əməliyyatı aparan şəxsin (filialının və ya struktur bölməsinin) bank kodu" sütunlarından ikinci halda "bank" sözü çıxarılsın;

**5.6.3.** "Qeyd 2" hissəsindən "banklar," sözü çıxarılsın və həmin hissəyə "kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;